

# NƏCİB MƏQSƏDLƏR UĞRUNDA

**Quba uşaq musiqi məktəbi Mədəniyyət Nazirliyinin əmri ilə 2004-cü ildə açılmışdır. Məktəbə gündüz şöbəsi, ayrı-ayrı ixtisaslar üzrə 60 şagird qəbulu planı verilmişdir. Belə ki, məktəbdə fortepiano ixtisası üzrə 31, skripka ixtisası üzrə 7, tar ixtisası üzrə 6, kamança ixtisası üzrə 4, qarmon ixtisası üzrə 5, klarnet ixtisası üzrə 4, nağara ixtisası üzrə 3 şagird təhsil alır.**

**Məktəbdə ayrı-ayrı ixtisaslar üzrə 15 müəllim çalışır. Bunlardan 3-ü ali təhsilli, 12-si orta ixtisas təhsillidir. Müəllimlərdən 7 nəfər fortepiano üzrə, 1 tar, 2 kamança, 1 qarmon, 1 klarnet, 1 skripka, 1 nağara, 1 nəzəriyyə üzrə fəaliyyət göstərir. Məktəbdə dərslər sentyabrın 15-də başlanmışdır. Burada bir sıra tədbirlər keçirilmişdir. Musiqi günü, müəllimlər günü, 31 dekabr Dünya azərbyacanlılarının həmrəylik günü və Yeni il münasibətilə məktəbin xoru və ayrı-ayrı ifa alətlərində solistlərin iştirakı ilə televiziya konserti keçirilmişdir. Bu konsertdə şagirdlər Azərbaycan xalq musiqisi ilə yanaşı Azərbaycan və dünya bəstəkarlarının əsərlərini də ifa etmişlər.**

**Məktəbin pedaqoji kolletivi rayon tədbirlərində yaxından iştirak edir. Bundan əlavə 16 oktyabrda iməclik keçirilmiş, məktəb ətrafı sahədə təmizlik işləri görülmüşdür. 20 Yanvar ümumxalq hüzn günü və Xocalı faciəsinin 13-cü il dönümü ilə əlaqədar olaraq ədəbi-bədii kompozisiya keçirilmişdir.**

**Şagirdlərə musiqi təhsili verməklə yanaşı Azərbaycanın milli bayramları, ənənələri və belə konsert proqramları hazırlamağı qarşıya məqsəd qoymuşuq. Məmnunluq hissi ilə bildirirəm ki, Novruz bayrımı münasibətilə təşkil olunmuş tədbir də yüksək səviyyədə keçirilmişdir.**

**İ. Məmmədov,**
**Quba uşaq musiqi məktəbinin direktoru**